# SEVGİLƏRİN SONU YOXDUR,

## *yaxud "Aşiqliyin işığında" kitabı üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

İnsan oğlu ayılsa, gözün açsa röyadan,
Görər ki, hörmət gəlir uzaq olsa riyadan.
Yel əssin, tufan qopsun nə aparar qayadan?
Bildiyini deməyən nakam gedər dünyadan,
Qızıl sözün zərgəri, nəsihətsən, ya Əli!

Hər çətində çağırsan inamına yol açar,
Gəl-gəl deyər uğurun, bəxtin sənə qol açar.
Həyat gülər üzünə, arzuların gül açar,
Hər müdrikdən qalan söz zaman-zaman dil açar,
Dünyanın sonunacan vəsiyyətsən, ya Əli!

Maraqlıdır ki, müəllif bu təxmisin sonluğunda tarixi dəqiq göstərir: 26.11.20214. Bu isə o deməkdir ki, qəsidə ilə təxmisin arasında təqribən 8 ilə qədər da da münasibət bildirir. Bu qoşmanın da əsas məğzi Əlinin sevilən obrazını müasir oxucuya bütün dolğunluğu ilə çatdırmaqdır. Özü də bu qoşmada müəllif doğulub-böyüdüyü yerlərin adını çəkir. Yaşadığı mənəvi mühitin təəssüratlarını dilə gətirir. Gözlərimizin önündə Xudafərin körpüləri canlanır, möhtəşəm Diri dağının təbii gözəlliklərini bütün canlılığı ilə sanki seyr edirik. Və nəhayət, bu mənzələrin fonunda onun mənəvi istinadgahı hər bəndin sonunda rədif kimi təkrarlanır. Və onu biz güc mənbəyi kimi görürük. Ümumiyyətlə, bütün sevgilərin mahiyyəti sevən şəxsə sonsuz güc bəxş etməsi ilə görünür:

Salama işığı, nuru gəl deyən,
Sabahlar sübhanı Əlidir, Əli,
Heydəri Karrardır yox yerdən dayaq
Pənahlar pünhanı Əlidir, Əli..

Hər ürəkdən min bir dilək ərz olar,
O burca getməyi hər kəs arzular;
Qatar-qatar sıralanar arzular,
Könüllər sarvanı Əlidir, Əli...

Xudafərin üstə Dirinin dərdi,
Göz görə qəlbimi qana döndərdi,
Qurbani ruhuma sədа göndərdi,
Allahın aslanı Əlidir, Əli.

Maraqlıdır ki, burada müəllif Dirili Qurbaninin də adını çəkir. Axı Dirili Qurbaninin özü də Əli ruhunun tərənnümçüsü olan bir ustad sənətkardır. O da bütün çıxılmazlıqlarda Allahdan, peyğəmbərdən sonra Əliyə müraciət edir, Əli sevgisi ilə dolub-daşan poetik örnəklər yaradır. Müəllif Əli aşiqi olan Qurbanini də sevdalısı olduğu obrazla yanaşı tərənnüm edir. Məmnunluqla qeyd edir ki, əgər Qurbani onun ruhuna, varlığına gələrsə, onu da dil-dil öyər, ona sevgisini bəyan edər. O, Qurbanidən ayrı düşürsə, bu zaman qəmlər yeyəcəyini də, dərdlər çəkəcəyini də bəyan edir. Və bu zaman qeyd edir ki, əgər Qurbani ruhuna gəlib soruşsa ki, sənin qonağın kimdir, o böyük bir sevinclə "Əlidir Əli" deyər. Bütün bunlar hamısı onu göstərir ki, müəllif poetik ruhunun məğzində əsas ilham qaynağı kimi Əlini

Sözü inci-inci sapa düzülən,
Odur hikmətləri dildən süzülən,
Yerlərdən, göylərdən əli üzülən
Təklərin gümanı Əlidir, Əli.

Xələfli eşqində gülə, barına,
Qəlbinə gün doğa - sözü arına,
Çoxları aldandı dünya varına
Düz sözün qurbanı Əlidir, Əli.

Müəllif bu əsəri 13.12.2024-cü il tarixində yazdığını qeyd edir. Yəni ki, bir neçə gün bundan əvvəl. Deməк, Əli mövzusu müəllifin təbiətində ilahi nurla güllər açan bir çəmənzara bənzəyir. Bu çəmənzar həmişə baharla müşayiət olunur. Onun duyğulanmaları ilahi nurun hərarəti, işığı ilə sığallanır.

Kitabda diqqətimi çəkən daha bir məziyyəti də burada mütləq qeyd etmək istəyirəm. Müəllif ədəbi qəhrəmanlarının taleyində Əli ibn Əbu Talibə - Həzrəti Əliyə sevginin Əli eşqi sonsuzluğunun yerini xüsusi vəchlə, ilhamlı duyğularla göstərir. Xüsusilə, «Kəsilməyən kişnərti» poema-essesinin dövrümüzlə bağlı yüksək ictimai məzmun daşıması hər bir oxucuda sonsuz təsirli duyğular oyada bilər.

Məlumdur ki, erməni vandalizmi Azərbaycanın tarixinə qanlı səhifələr yazdılar. Xocalı qırğını isə bu qanlı səhifələrin elə bir faktıdır ki, bəşəri mahiyyət daşıyır. Bu cinayət təkcə Azərbaycan xalqına yox, ümumiyyətlə, insanlığa yönəlik cinayətdir. Xocalı faciəsini göstərən qanlı mənzərənin tablosunu sanki bütün canlılığı ilə əsərdə görürük.

Bir ananın döşündən süd əmən körpə donub,
Bir ananın gözündə qaralıb, ümid sönüb.

Sanmayın yazılanlar bir rəssamın işidir,
Bir kimsə söyləməsin fələyin gərdişidir.

Erməni vandalları törədib bu əməli,
Vandalizmin xisləti cinayətin təməli.

Bir balaca qızın da gəlinciyi əlində,
Sıxılıb sinəsinə, donub sözü dilində.

vaxt ötmüşdür. Ancaq hz.Əli obrazı onun varlığında bu gün də canlı olaraq yaşamağa davam edir.

Təsadüfi deyil ki, müəllif Füzulinin "Ya Əli" rədifli qəzəlinə də təxmislə Əli sevgisini bir daha bəyan etmişdir. Özü də Füzulinin bu məşhur qəzəlini iqtibasla təxmis etmişdir. Bu təxmisdə də biz müəllifin Əli obrazına sonsuz sevgisini duyuruq:

Unutmaz zaman səni, tarixlər yenə anar,
Lənətlə damğalanar hər kəs ki, səni danar.
Dananlar peşman olar, axır-əzəl düz qanar
"Cümlə insanlar, mələklər Kəbətək məbəd sanar,
Hər yerin kim orda olmuşdur məqamın, ya Əli!"

Hər doğulan körpədə yaşayarsan adbaad,
Hər millətə doğmasan, bilməz səni kimsə yad.
Bilirəm, eşidərsən qopsa dilimdən fəryad
"Hər kəs istəsə, cahanda çərxidən alsın murad,
Kama çatmaz olmasa, lütfi-tamamın, ya Əli!"

Xələfli yaxşı bilir, nurun haqqa yol olar,
Sənsiz keçən günündə - badəsi qəmlə dolar.
Nurundan pay düşməsə, qönçə də vaxtsız solar
"Lütfi-süfrəndən sənin hər ləhzədə min feyz alır,
Bu Füzuli vird edər həmdi-salamın, ya Əli!".

Hikmətli duyğulanmaların, poetik tərənnümün gözəlliyi oxucuda sonsuz zövq təəssüratı yaradır. Bütün bunlar onu göstərir ki, obraza sevgi varsa, obrazı sözün həqiqi mənasında müəllif öz varlığında canlandıra bilirsə, onun ruhuna obrazın mənəvi mühiti hopursa, o, yazıdan doymur. Və poetik uğur onun nəsibi olur. Doğru deyir ki, kim öz sevdiyindən ayrı düşürsə, onun badəsi qəmlə dolur. Qönçəsi də vaxtsız solur. Məhz bu təxmisdə biz belə poetik duyğulanmaların yerli-yerində işlənməsindən məmnunluq duyğuları alırıq.

Müəllif Əli obrazına "Əlidir Əli" adlı bir qoşma görür:

Gələ, Qurbanini dil-dil öyərəm,
Canımın içində qəmlər yeyərəm;
Soruşsa qonağın kimdir deyərəm,
Könlümün mehmanı Əlidir, Əli...

Qəm məni aparsa dərdin öyünə,
Qəzamın qədəri çəksə düyünə;
Dönmərəm sevdamın yolundan yenə
Qəlbimin imanı Əlidir, Əli..

Ruhumun ocağı, közü güllənər,
Açar kitab-kitab, düzü güllənər.
Bir gün yazdığımın özü güllənər
Dilimin sahmanı Əlidir, Əli.

Müəllif qeyd edir ki, haqqına güvənən adamlar, ədalətə söykənən hər hansı bir kimsə bütün döyüşlərdə məğlubedilməzdir. Əlini də bir cəngavər kimi xarakterizə edən əsas keyfiyyət haqq uğrunda mərdanəliklə vuruşmasıdır. Nə vaxt ki, Əli insanlar arasında haqqın nizamını görür, o vaxt sonsuz bir sevgi ilə məmnunluq duyur. Müəllif sanki bu zaman həzrəti gözlərinin önündə görür, haqqın təntənəsinə onun sevindiyini müşahidə edir və elə bunun özü də onun ruhunda əks-səda doğurur. Müəllif məhz bu duyğularla, yüksək poetik vüsətlə bu əsərini də sona çatdırır:

Haqqına güvənib açar davanı,
Yenə zalımlara qurar divanı,
Dayaqdır məzluma adı, ünvanı,
Rəhimlər sultanı Əlidir, Əli.

Haqqın nizamına sevinər, gülər,
Doğruya, düzgünə açıq yol dilər.
Soruşsan deyər ki, Cəbrayıl bilər
Allahın Fərmanı Əlidir, Əli.

Öldürülüb qızcığaz, güllələnib gəlincik,
Qızcığazın əlində qan bələnib gəlincik.

Xocalının səsini eşidən yox dünyada,
Doğrusu göyə çıxan yalanı çox dünyada.

Danışır Atakişi, gözlərindən yaş süzür,
Ağrıları qəlbindən sanasan göy daş süzür.

Daha bir məqam da diqqəti çəkəndir. Xocalı faciəsinin şahidini, Xocalının sabiq prokuroru Hacı Atakişinin xatirələri əsasında qələmə alınmış ayrı-ayrı hissələr, əslində, yaddaşımızda yaşayan unudulmaz ibrət kitabının səhifələri kimi oxunur. Müəllif çox ustalıqla əsərin qəhrəmanlarının qırılmaz inamını Əli eşqi, Əli sevgisi ilə bağlayır. Həqiqətən Azərbaycan ordusu düşmənə sanki Əli zərbi-dəstini göstərdi. Dəmir yumruq Xocalı soyqırımını törədənlər üçün «Kəsilməyən kişnərti»nin çağırdığı qisası yağıdan aldı. Bəli, qisas qiyamətə qalmadı.

Əli haqqın tərəfində olan böyük şəxsiyyət kimi bu gün də bəşər nəslinə sonsuz inam bəxş edir. Müəllifin belə bir fikri ilə mən də razıyam. Müdriklər, aqillər bir xalqın övladı kimi dünyaya gəlir, amma bütün bəşərin övladı kimi əbədiyaşarlıq haqqı qazanır.

Hər bir yazıçının, şairin, bir sözlə, qələm adamının yaradıcılığında yaddaş fenomeninin xüsusi rolu var. Çünki yaddaşda olanlar ayrı-ayrı zamanlarda sənətkarın düşüncəsində oyanır, cəmiyyətlə, həyatla münasibətdə müəyyən məna kəsb edir. İstər-istəməz sənətkar yaddaşında olanları yazıya almağa məcbur olur. Ona görə "məcbur olur" deyirəm ki, yaddaş bütün kəskinliyi ilə sənətkarı yazmağa vadar edir.

*(Davamı 11-ci səhifədə)*

# SEVGİLƏRİN SONU YOXDUR,

## *yaxud "Aşiqliyin işığında" kitabı üzərində düşüncələr*

*(Əvvəli 10-cu səhifədə)*

Zənnimcə, görkəmli sənətkarların çox dəyərli yaradıcılıq örnəkləri məhz yaddaş əsasında yazılanlardır. Qabriel Qarsiya Markes, Çingiz Aytmatov, Anar, Mövlud Süleymanlı, Elçin və digər bir çox söz-sənət adamları yaddaşa istinadla zamanın çox dəyərli ədəbi nümunələrini yaradıblar.

Ə.R.Xələflinin "Aşiqliyin işığında" kitabının ədəbi dəyəri haqqında mən öz mülahizələrimi yazının əvvəlində bildirmişəm. Ancaq bu kitabda yer alan "Haqqın yolu andımız" poeması yaddaşa istinad baxımından xüsusi əhəmiyyət kəsb etdiyinə görə bu barədə bir qədər geniş danışmaq istəyimdən vaz keçə bilmədim. Çünki bu əsəri oxuduqca elə mənim özümün də uşaqlıq, gənclik çağlarım, atamın, anamın həyat yolu, doğmaların, tanışların, qonşuların, habelə, hökümət adamlarının bizə münasibəti gözlərimin önündə canlandı. Elə hadisələr yaddaşımda oyandı ki, bu barədə mən də imkan tapdıqca öz xatirələrimi qələmə almağı düşündüm. Amma indilikdə "Aşiqliyin işığında" kitabında yer almış "Haqqın yolu andımız" poeması ilə bağlı mülahizələrimi yazıya gətirməyə çalışacağam.

Əvvələ, bu əsərin quruluşu, əsas xətti bir növ dastançılıq ənənələrini yada salır. Müəllif poemanın əvvəlində bir epiqrafla, bir növ əsərinin mahiyyətini diqqətə çatdırır. "HAQQIN YOLU ANDIMIZ" məsnəvi-poema poemasının epiqrafını burada göstərmək yerinə düşər: "Əli ibn Əbu Talibə sonsuz sevgimlə və

atamın xatirəsinə ehtiramla". Bəli, hər kəs sevdiklərinə, qəlbinə, ruhuna doğma olan insanlara ən xoş sözünü məhz ehtiramla, sevgisiylə çatdırır. Poemanın əvvəlində müəllif bir növ aşıq yaradıcılığına xas olan ustadnamə təriqində yazılmış bir divanini təqdim edir. Məlumdur ki, divani aşıq yaradıcılığı janrlarından biridir. Aşıqlar öz dastanlarını danışmağa başlamazdan əvvəl ustadnamələrdən, divanilərdən istifadə edir, bir növ məclisi dastanı dinləməyə hazırlayır.

Sözüm bitməz vəsf edəm, haqq üzünü görəni,
Qəlbində sevgisinin sarayını hörəni,
Kəlməsində kəsəri, hökmündə ədaləti,
Cəsarətdə Əlidir - türk oğlu, türk ərəni.
Yön tuta əbədiyə, taxtdan uca görərsən,
Göylərdən bəla gəlsə, baxtdan uca görərsən.
Axtarsan axır-əzəl, vaxtdan uca görərsən,
Meydanda hər savaşa sinəsini gərəni.

Qürurunu qoruyar, hər bir yadın içində,
Şərəfini tox tutar mın bır adın içində,
Söyləməz ecanım harayə, yansa odun içində.
Bəxtinə qurd ulayar gozü gəzsə börəni.

Müəllif elə birinci bənddəcə tərənnüm edəcəyi obrazı yada salır. Onun sevgiylə poetik obraz səviyyəsinə qaldırdığı "türk oğlu, türk ərəni" yenilməz bir insandır, çünki o, cəsarətdə Əli timsallıdır. Əlbəttə, söhbət Hz.Əlidən gedir. Məlumdur ki, Əli Şərq ədəbiyyatında cəsarətin, qəhrəmanlığın, müdrikliyin, parlaq natiqliyin obrazıdır. O, ən çətin məqamda belə doğruluğa istinad edən şəxsiyyət kimi zaman-zaman vəsf olunmuşdur. Əlbəttə, müəllif öz qəhrəmanını reallıq əsasında vəsf edir, doğma yurdun havasıyla, suyuyla böyümüş insan kimi göstərir. Elə təqdim olunan divanidən də göründüyü kimi onun əsərinin əsas qəhrəmanı Azərbaycan oğludur, qarabağlıdır. Şübhəsiz, bununla müəllif öz qəhrəmanının təbiətcə kimliyinə, necə insan olduğuna diqqəti yönəldir. Bizdə belə bir qənaət yaranır ki, o, ən sağlam dəyərlərə sahib olan insandır. Nəhayət, biz növbəti bənddə onun adını da görür, mətndə oxuyur və onunla ilk tanışlıqdan keçirik.

Azərbaycan ellidir, əsli Qarabağlıdır,
Yurdu cənnət məkanlı, aranlıdır, dağlıdır.
Tanıyar öz yolunu - soya, kökə bağlıdır,
Aşar, ötər sədləri, keçər bəndi-bərəni.
Ocaq çatsam sinəmdə qələmimə köz gələr,
Həzrət Əli eşqinə, Zal adına söz gələr.
Misra-misra hikməti sıralanar, düz gələr,
Xələfli dastan yazar, qoy oxusun törəni.

Bundan sonra müəllif öz ənənəsinə sadiq qalaraq məzmuna başlamamışdan əvvəl Allaha xitab edir. Bütün çətinliklərdən keçmək üçün ondan kömək diləyir. Hətta öz könlünə müraciət edərək yazıya başlayarkən bu müraciətində də Allahı nəzərdə tutur. Bununla bizi belə bir qənaətə inandırır ki, Allah hər kəsin özünün varlığındadır. Həmişə olduğu kimi bu əsərində də müəllif xalqın taleyi ilə bağlı tarixi hadisələri də yada salır. Erməni faşistlərinin Qarabağda törətdikləri qırğınları, barbarcasına mədəniyyət abidələrini məhv etmələrini çox təsirli lövhələrlə yazıya gətirir.

Biz mətndə Xocalının xatırlandığın görürük; xüsusilə qəfəs içində çırpınaraq cianyətlərini etiraf etməkdən yayınmağa çalışan cəlladları müşahidə etdikcə dəmir yumruğa, Ali Baş Komandanın böyük sərkərdəlik məharətinə əhsən deyirik. Çünki quldurları qəhrəman oğullarımız məğlub etdi. Müəllifin doğulub-böyüdüyü Cəbrayılla bağlı məkan adlarını oxuduqca həmin yerlərin işğalla dağıdılmış acınacaqlı mənzərələrini gözlərimizin önündə canlanır.

İndi qəfəs içində Xocalı cəlladları,
İndi imdad diləyir ünvanları, adları.
Cəbrayıldan başladı qələbənin yolları,
Azadlığa açıldı Qarabağın qolları.
Xələfli, gözün aydın Cəbrayıl azad olub,
O günlərdə öz adım ən populyar ad olub.
Yaddaşıma güvənib itmiş yola çıxıram,
Ayrılığı, həsrəti bitmiş yola çıxıram.
Şəhid olan yaddaşın həsrəti var gözümdə,
Gözlərimin yağışı çiçəklənir sözümdə.

Maraqlıdır ki, müəllif məhv edilmiş, barbarcasına dağıdılmış abidələri elə yaddaşın özü kimi təsvir edir. Dağıdılmış abidələrə şəhid olmuş yaddaş kimi poetic şərh verir. Mətndən məlum olur ki, Cəbrayılın mərkəzində bir "Qara daş" abidəsi var. Şübhəsiz, bu bir meteor parçasıdır və insanlar bu abidəyə məhz göydən düşdüyü üçün xüsusi münasibət göstərirlər. Hər halda bu "Qara daş" abidəsi insanların yaddaşında yurdun rəmzi kimi uzun illər hifz olunub. Adamları doğma yurda qayıdışa sövq edir.

Qara daş abidəsi... çoxları pir bilirdi.
Pir bilənlər inamla ziyarətə gəlirdi.
Güllələrdən nişan var qara daşın üstündə,
Hərəsi bir yaradır daş yaddaşın üstündə.
Bəs niyə çağırmadın, daş qardaşı gələ bir,
Yağa yağı başına göy üzündən gülə bir.

Hətta müəllif "Qara daş"ın özünü də az qala ittiham edir. Onun niyə yağılara qənim olmadığını, bu qədər cinayətlərə özünün daş səbri ilə dözüb dayandığını xüsusi poetik əhvalla təqdim edir.

Müəllif sanki səfərdədir, yol boyu gördüklərini yazıya gətirir. "Kredo" qəzetində illər öncə, səhv etmirəmsə, müəllifin 60 illik yubileyi münasibəti ilə Musa Yaqubun bir təbrik məktubu dərc olunmuşdu. Azərbaycanın çox görkəmli sənətkarı, Xalq Şairi Musa Yaqub Əli Rzaya xitabən deyir ki, sən iki imamın adı ilə (Əli və Rza) çox böyük işlər görürsən. Ancaq mən iki peyğəmbərin adı ilə (Musa və Yaqub) heç o qədər böyük işlər görə bilmirəm. Əlbəttə, burada böyük sənətkar xüsusi təvazökarlıqla Əli Rzaya sevgisini, onun gördüyü işlərə rəğbətli münasibətini ifadə etmişdir. Zənnimcə, əsərin bu yerində Musa Yaqubun adının xatırlanması məhz həmin təbrikdən gələn notlarla bağlıdır.

Mən yenə də yoldayam, yollar məni yormayıb,
Arzum, sözüm, istəyim son cavabı sormayıb.

Öz adıma güvəndim, könlüm Əli öyəndi,
Rza şəhid işığı... Musa Yaqub deyəndi.

Atam keçən yolları cığır-cığır anıram,
Sinəmə köz basılıb, korun-korun yanıram.

Nəfəsini duyuram... əsəni görməsəm də,
Ruhun məni çağırır mən səni görməsəm də.

Mən səndən ayrılmadım, bir yoldayıq, ay ata,
Xatirəndən, sözündən gəlirəm tuta-tuta.

Müəllif atasına çox səmimiyyətlə müraciət edir, sanki bütün həyatının mənasını, özünün əməli fəaliyyətini atasından aldığı mənəvi proqrama əsasən qurduğunu çox böyük səmimiyyətlə diqqətə çatdırır. Elə özü də xatırladır ki, Əli Rza adını ona atası verib. Bu da, şübhəsiz, onun atasının Hz.Əliyə inamı və sevgisiylə bağlıdır.

İnsanlar sevdiklərinə çox inanırlar. Yaşamağın dəyərini, həyatlarının mənasını sevdiklərində görməyə çalışırlar. Biz bu duyğulanmaları əsərin ilhamlı misralarından da hiss edirik.

İki imam adını əmanət verib atam.
Ən ülvi istəyini adımdan dərib atam.
Cəbrayıl Ata yolu çıxdım dağın başına,
Sevgimi nəzir verdim torpağına, daşına.
Ey gəncliyim, hardasan sani gəzir gözlərim.
Bəzək vursun adına sətir-sətir sözlərim.
Hardasan gözə görün, dastan yazım, söz əkim,
Xatirələr içindən çıx gəl şəklini çəkim.

Ürəyimin səsidir misralarda söz olan,
Bu dağlanmış dağlardır sinəm üstə köz olan.

Müəllif doğru deyir. Hər bir misra onun qəlbinin səsidir. Biz oxuduqca istinad etdiyi obrazın təbiətinə yaxından bələd oluruq. Bir sözlə, əsərin ayrı-ayrı səhifələri dəyişdikcə ləyaqətli xalq adamının, mərd bir kişinin obrazının mükəmməl təsvirinə rast gəlirik.

Müəllif keçdiyi yollara diqqət edir. Bir-bir yol boyu rast gəldiyi adlı məkanlara münasibət bildirir. Atası Zalın adı ilə bağlı olan yerdə ayaq saxlayır. Göstərir ki, indi də adamlar həmin yurd haqqında danışanda onun atasını hörmətlə xatırlayırlar. Əlbəttə, bu da hər kəsin əməli ilə bağlı olan məsələdir. İnsan əməli ilə həyatda iz qoya bilər. Başqa cür yaddaşlarda yaşamaq mümkün deyil.

"Haqqın yolu andımız" poeması çox maraqlı obrazlar qalereyasıdır. Əziz Rüstəmoğlu, Zal Əzizoğlu, Pəri nənə, Zülfü nənə, Rəhim qızı Tovuz-Firəngiz, Səməd Əzizoğlu, Zərnişan Əzizqızı, Məmmədhəsən dayı, İmrəli oğlu Fətiyalı, Ziyadxan oğlu Qüdrət, Əsədli Balakişi, Aslan oğlu Qara kimi adlar bizi maraqlı obrazlarla tanış edir. Müəllif tərənnüm etdiyi hər bir obrazın təbiətini, xarakterik cizgilərini verməklə onları yaddaşlara yazır. Biz mətni oxuyub başa çıxanda hər bir şəxsiyyəti sanki öz portreti ilə görürük. Bu yerdə Səməd əminin çox maraqlı bir xatirəsi oxucular üçün də maraqlı olar:

Səməd əmim deyəni burda yada salmasam,
Sözüm məndən inciyər, qayğısına qalmasam.

On adamın önündə Zal təkcə dayanardı,
Üstünə ağac çəkən qanına boyanardı.

Yaylaqda dava düşdü, ermənilər yeridi,
Zal doldu ağacına... heç durmağın yeridi?

Ağacı qılıncıydı, bəlgəsi də qalxanı,
Hər zərbəsi yıxardı tərpənəni, qalxanı.

Ermənilər sonralar yanırdılar az qala,
"Əli kimdir bilmədik, o kömək etdi Zala".

Onda Zalın köməyi özünün inamıydı,
Çağırdığı sidq ilə sözünün inamıydı.

Bu mətndə biz sanki erməni faşistlərinin bizim xalqımıza olan qəddar münasibətinin köklərini görürük.

Ona görə deyirəm ki, yaddaşla bağlı əsərlər yaxşı öyrənilməlidir. Çünki yaddaşla bağlı əsərlərin hamısında bu və ya digər dərəcədə tarixin çox ibrətli izləri var.

"Aşiqliyin işığında" kitabı başqa bir çox məziyyətlərinə görə çox qiymətlidir. Xüsusilə "Haqqın yolu andımız" adlı poema həm bədii cəhətdən, həm də tarixi-etnoqrafik baxımdan xüsusi tədqiqata möhtacdır. Kiçik bir təhlil yazı ilə həmin əsərin məziyyətlərini tam araya gətirmək çətindir. Bəlkə gələcəkdə mənim mənəvi mühitimi səfərbər etmiş, diqqətimi cəlb etmiş bu əsər haqqında daha ətraflı fikir bildirməyə cəhd edərəm.

"Haqqın yolu andımız" poeması yüksək ilhamla qələmə alınıb. Müəllif hər bir obraz üzərində diqqətlə işləyib və ən başlıcası, onun ləyaqətli insanlara sevgisi açıq-aşkar duyulur.

Zənnimcə, "Aşiqliyin işığında" kitabı müasir insanların varlığına aşıladığı ən gözəl duyğularla təsir göstərəcək, onlara haqqı, həqiqəti qorumağı təlqin edəcəkdir. İnanıram ki, kitab oxucuların yüksək marağına səbəb olacaq.

*17.12.2024*